*Biz bu gün böyük iftixar hissi ilə deyirik ki, Azərbaycan Respublikasının milli ordusu – respublikamızın milli təhlükəsizliyini, əhalimizin əmin-amanlığını və mühafizəsini təmin etmək üçün, ölkəmizin sərhədlərinin qorunması, ərazi bütövlüyünün, torpaqlarının müdafiə edilməsi üçün Azərbaycanın layiqli silahlı qüvvələri vardır!*

**Heydər ƏLİYEV**
**Ümummilli lider**

*Biz hər sahədə, beynəlxalq müstəvidə güclənirik, güclənməliyik – ölkə daxilində sabitlik, iqtisadi sahədə islahatlar, sosial problemlərin həlli, regionların inkişafı və nəhayət, ordu quruculuğu. Ona görə bu yolla biz gedəcəyik, ordumuzu bundan sonra da gücləndirəcəyik, nə qədər lazımdırsa, orduya o qədər vəsait ayıracağıq.*

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**



# Azərbaycan Ordusu Vətən müharibəsində müasir döyüş tarixinin şanlı səhifəsini yazdı

**Bütün dünya əzəli tarixi torpağımız olan Qarabağ bölgəsini hər zaman Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyıb. Beynəlxalq təşkilatlar tərəfindən qəbul edilən qərar və qətnamələr də Vətən müharibəsindəki parlaq qələbəmizə qədər erməni ordusunun işğalı altındakı torpaqların ölkəmizə məxsus olduğunu təsdiqləyib. Lakin 30 ilə yaxın həmin qərar və qətnamələr kağız üzərində qalıb. Bununla bərabər, Minsk qrupu çərçivəsində danışıqlar da heç bir bir nəticə verməyib. İşğal dövründə isə Ermənistan ardıcıl olaraq hərbi təxribatlar törədib.**

Torpaqlarımız işğal altında olduğu dövrdə dövlətimizi başçısı tərəfindən Azərbaycan Ordusunun modenləşdirilməsi daim diqqətdə saxlanılıb. Silahlı qüvvələrimiz bu güc-qüdrətini 2016-cı ilin Aprel döyüşlərində sübut etdi. Həmin vaxt Ermənistan ordusunun təxribatlarına cavab olaraq, silahlı qüvvələrimiz sürətli əks-hücum əməliyyatı ilə düşməni ağır məğlubiyyətə uğradaraq, Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğal altındakı ərazilərinin 2 min hektardan çox hissəsini azad etdi. Həmçinin minlərlə hektar ərazi Azərbaycan Ordusunun tam nəzarətinə keçdi. Ordumuz dördgünlük Aprel döyüşləri ilə xalqımıza qələbə sevinci yaşatdı.

Ermənistan silahlı qüvvələri bu döyüşlərdə böyük itkilər verdi. Düşmənin 320-dən artıq hərbçisi məhv edildi, 500-dən artıq hərbi qulluqçusu yaralandı, 30-dək tankı və digər zirehli texnikası, 25-dən artıq artilleriya qurğusu sıradan çıxarıldı, Madagiz yaşayış məntəqəsində yerləşən qərargahı və əsas hərbi hissələri dağıdıldı. Ağdərə-Madagiz, Cəbrayıl istiqamətindəki yolların nəzarətdə saxlanılmasına imkan verən strateji mövqelər ələ keçirildi.

Azərbaycan Ordusu daha bir uğuru Aprel döyüşlərindən iki il sonra – 2018-ci ilin mayında Günnüt zəfəri ilə qazandı. Bu uğurlu əməliyyat nəticəsində Naxçıvan Muxtar Respublikasının 11 min hektardan artıq ərazisi və Şərur rayonunun Günnüt kəndi düşməndən azad edilərək dövlət sərhədi boyunca əlverişli mövqelər Azərbaycan Ordusunun nəzarəti altına keçdi. Beləliklə, Əlahiddə Ümumqoşun Ordunun müdafiə zolağının ön xəttinin dövlət sərhədi boyu əlverişli mövqelərə irəli çəkilməsi əməliyyatı uğurla nəticələndi, qarşıya qoyulan məqsədə nail olundu.

Ermənistan, necə deyərlər, bütün bu dərslərdən nəticə çıxarmadı. Ötən il iyul ayının 12-16-da Azərbaycan–Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində daha bir məqsədyönlü təcavüzkar hərəkəti törətdi. Bu silahlı hücum təsadüfi bir hərbi insident olmayıb, Ermənistanın Azərbaycan Respublikasına qarşı qanunsuz güc tətbiqinin növbəti açıq təzahürü kimi diqqət çəkdi və ölkəmizin yeni ərazilərini zəbt etmək məqsədi daşıdı. Bədxah düşmənin təcavüzü bu dəfə də silahlı qüvvələrimiz tərəfindən layiqincə cavablandırılmasına baxmayaraq, Ermənistan yenə növbəti işğalçı siyasətini həyata keçirmək iddiasından əl çəkmədi. Bunun üçün hazırlıqlara başlayıb, külli miqdarda silah və sursat tədarük edib, qüvvələrini təmas xətti boyunca cəmləşdirdi. Hətta Azərbaycana qarşı müharibə aparmaq üçün on minlərlə mülki şəxsdən ibarət hərbi dəstələr yaradıldığını elan etdi.

Uzun bir dövrü əhatə edən qəsbkarlıq, eləcə də, düşmənin ardıcıl olaraq hərbi təxribatlar törətməsi Azərbaycanın səbrini tükəndirmişdi. Buna görə də Ermənistan silahlı qüvvələrinin ötən il sentyabrın 27-də ölkəmizə qarşı təxribat törədərək, hərbi obyektləri və mülki əhalini hədəfə alandan sonra Azərbaycan Ordusunun beynəlxalq hüquqa əsaslanaraq, ərazi bütövlüyümüz uğrunda əks-hücuma keçməkdən başqa yolu qalmadı. Silahlı qüvvələrimizin döyüş qabiliyyəti və əzmi, maddi-texniki bazası, xalq-Prezident-ordu birliyi qısa müddətdə dövlətimizin ərazi bütövlüyünün təmin olunması istiqamətində möhtəşəm uğurları şərtləndirdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ötən il sentyabrın 27-də xalqa müraciətində dedi: "Biz öz torpağımızda vuruşuruq. Bu gün Azərbaycan Ordusu Azərbaycan torpaqlarında düşmənə sarsıdıcı zərbələr endirir. Bu gün Azərbaycan Ordusu öz torpağında Azərbaycanın ərazi bütövlüyünü qoruyur, müdafiə edir. Erməni əsgərinin bizim torpağımızda nə işi var?! Ermənistan ordusunun bizim torpağımızda nə işi var?! Heç kəs üçün sirr deyil ki, "Dağlıq Qarabağ ordusu"nun tərkibində olan şəxsi heyətin 90 faizi Ermənistan vətəndaşlarından ibarətdir. Ermənistan işğalçı dövlətdir, bu işğala son qoyulmalıdır və son qoyulacaqdır.

Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!"

Onu da vurğulayaq ki, son 18 ildə olduğu kimi, ordumuzun əks-hücum əməliyyatları apardığı günlərdə də xalq-Prezident-ordu birliyi hər addımda özünü büruzə verirdi. Bu, Vətən müharibəsinin başlandığı gün Prezident İlham Əliyevin sədrliyi ilə keçirilən Təhlükəsizlik Şurasının iclasında dövlətimizin başçısının çıxışında da öz ifadəsini tapdı. Ölkə rəhbəri həmin çıxışında Ermənistan tərəfindən əvvəllər də əliyalın dinc əhaliyə qarşı belə vəhşiliklər törədildiyini xatırladaraq, əsas hədəfin bizim yaşayış məntəqələrimiz olduğunu diqqətə çatdırdı. Eyni zamanda, erməni işğalçılarının atəş açmaqla Azərbaycan vətəndaşları arasında, cəbhəboyu yerləşən kəndlərdə, şəhərlərdə yaşayan insanlar arasında təşviş yaratmaq məqsədi güddüklərini açıqladı: "Amma tam qətiyyətlə deyə bilərəm ki, – bu gün səhər mən bütün bölgələrdən, cəbhəyanı bölgələrdən məlumat almışam, –Azərbaycan vətəndaşları cəsarət göstərirlər, hər kəs öz yerindədir, ordumuza, dövlətimizə hər an dəstək verməyə hazırdırlar və bunu edirlər".

Beləliklə, Azərbaycan Ordusu ötən il sentyabrın 27-dən başladığı əks-hücum əməliyyatları müddətində – 44 günlük döyüşlərdə Ermənistanı öz müqavimətini dayandırmağa, Azərbaycanın şərtlərini qeyd-şərtsiz qəbul etməyə nail oldu. Azərbaycan, Rusiya prezidentlərinin və Ermənistanın baş nazirinin birgə imzaladıqları bəyanat da məhz düşmən ölkənin kapitulyasiyasının ifadəsi idi. Müharibədə ağır itkilər verərək, məğlubiyyətin qaçılmazlığını anlayan, dərk edən işğalçı respublikanın rəhbərliyi Prezident İlham Əliyevin münaqişənin ilk günlərindən bəyan etdiyi şərtlərlə razılaşmaq qərarına gəldi.

Son dərəcə yüksək dəqiqliklə hədəfi vuran və qarşısıalınmaz zərbə gücünə malik silahlarla, düşmənin ağır texnikasını və canlı qüvvəsini darmadağın edən pilotsuz uçuş aparatları ilə ordumuzun tamamilə modernləşdirilməsi Azərbaycanda ordu quruculuğu istiqamətində görülən ciddi tədbirlərin kiçik bir hissəsidir. Məhz elə buna görə də Azərbaycan Silahlı Qüvvələrinin hazırda dünyanın ən güclü 50 ordusundan biri olması da bunun bariz ifadəsidir.

Yeri gəlmişkən, son bir neçə ilin statistikasına əsasən, ölkəmiz müasir silahlanmaya görə, Avropada 2-ci, dünyada 3-cü yerdə qərar tutub. Şübhəsiz ki, bütün bu uğurlar dövlətimizin başçısının həyata keçirdiyi məqsədyönlü ordu quruculuğu siyasəti sayəsində mümkün olub.

Əgər belə olmasaydı, hazırda Azərbaycan Ordusu torpaqlarımızı işğaldan azad etmək üçün BMT Təhlükəsizlik Şurasının kağız üzərində qalan 4 qətnaməsini təkbaşına reallaşdıra, hərb meydanında düşmənə qalib gələ, cəbhə xəttinin bütün istiqamətlərində əməliyyat şəraitinə tam nəzarət edə bilməzdi.

Bir sözlə, Vətən müharibəsində Azərbaycanın parlaq qələbəsi son 18 ildə ölkəmizdə ordu quruculuğuna prioritet istiqamət kimi yanaşılmasının, eyni zamanda, silahlı qüvvələrin hərbi qulluqçularına və onların ailələrinə göstərilən diqqət və qayğının daim diqqət mərkəzində saxlanılmasının məntiqi nəticəsi idi.

Dövlətimizin başçısı Azərbaycan Ordusunun güc-qüdrətinin indiki səviyyəyə çatmasının təsadüfi olmadığını xüsusi vurğulayıb: "Ordu quruculuğu mənim fəaliyyətimdə həmişə birinci yerdədir. Hərbçilər də, Azərbaycan xalqı da bunu bilir. Həmişə demişəm ki, ordumuz üçün nə lazımdırsa, biz onu da edəcəyik. Biz güclü, iradəli ordu yaratmışıq. Bizim bütün silahlı birləşmələrimiz müasir standartlara cavab verir və döyüş tapşırığını şərəflə, vicdanla, cəsarətlə yerinə yetirir. Bu gün əks-hücum əməliyyatında bizim müxtəlif silahlı birləşmələrimiz iştirak edir və vahid komandanın rəhbərliyi altında əks-hücum əməliyyatı uğurla gedir. Bütün silahlı birləşmələr arasında koordinasiya tam şəkildə təmin edilib. Əminəm ki, bu əks-hücum əməliyyatının bundan sonra da uğurlu nəticələri olacaqdır".

Nəhayət, Azərbaycan İkinci Qarabağ müharibəsində əldə etdiyi möhtəşəm zəfərlə Ermənistanın işğalına son qoydu. Dövlətimizin başçısının vurğuladığı kimi, müzəffər silahlı qüvvələrimiz bu savaşla təkcə faşist Ermənistan dövlətini deyil, həm də insanlığa qənim kəsilən faşizmi məğlubiyyətə uğratdı.

Burada bir tarixi məqamı da xatırlatmaq istərdim. Prezident İlham Əliyev Vətən müharibəsində düşmənin məğlubiyyəti ilə başa çatan gün qələbə münasibətilə xalqa müraciətində hamımızı sevindirən, 30 illik ağrı-acılara son qoyan uğurlarımızı xalq-Prezident-ordu vəhdətinin, birliyinin şərtləndirdiyini bildirdi: "Biz nə qədər böyük sınaqlardan çıxdıq, nə qədər böyük təzyiqlərə məruz qaldıq. Demək olar ki, gündəlik rejimdə, dayanın, dayanın, dayanın, dayanın. Amma biz qabağa getdik. Çünki mən xalqın dəstəyini hiss edirdim, xalqın inamını görürdüm. Məni heç nə dayandıra bilməzdi. Çünki mən bilirdim ki, biz haqlıyıq. Biz öz ərazi bütövlüyümüzü bərpa edirik, öz torpaqlarımızı qaytarırıq".

Prezident, Ali Baş Komandan İlham Əliyev, həmçinin Vətən müharibəsinin bütün dünyaya Azərbaycan xalqının nə qədər böyük xalq olduğunu göstərdiyini vurğuladı. Əlavə etdi ki, uğurlarımızın əsasında yenilməz, dəmir iradəli, müzəffər xalq, müzəffər ordumuz dayanıb.

Burada onu da vurğulayaq ki, istər ulu öndərimiz Heydər Əliyevin hakimiyyəti dövründə, istərsə də Prezident İlham Əliyevin Azərbaycana rəhbərlik etdiyi son 18 ildə ordu quruculuğu, əsgər və zabitlərə qayğı daim diqqət mərkəzində olub. Azərbaycan Respublikasının müstəqilliyi uğrunda canını fəda edən şəhidlərimizin ailələrinə yüksək həssaslıq göstərilib.

*(ardı 6-cı səhifədə)*

Xalq qəzeti.- 2021.- 1 iyul.- S.1; 6.



# Azərbaycan Ordusu Vətən müharibəsində müasir döyüş tarixinin şanlı səhifəsini yazdı

*(əvvəli 1-ci səhifədə)*

Ali Baş Komandan İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın müvafiq göstərişlərinə əsasən dövlət qurumları bu kateqoriyadan olan insanların problemləri ilə daim yaxından maraqlanır, onların problemlərinin aradan qaldırılması üçün mütəmadi olaraq tədbirlər həyata keçirir. Prezident İlham Əliyevin tapşırığına əsasən İkinci Qarabağ müharibəsində şəhid olmuş qəhrəmanlarımızın ailə üzvlərinə və müharibə iştirakçılarına aidiyyəti qurumlar tərəfindən qayğı və diqqət mühüm bir vətəndaşlıq borcu kimi yanaşılır. Bu isə cəmiyyətdə birliyin və qarşılıqlı etimadın yeni təzahür forması kimi bütün təbəqələrdən olan insanlar tərəfindən xoş ovqatla qarşılanır, onların dövlətimizə və Prezidentimizə inam hisslərini, məhəbbətini gündən-günə artırır.

Ümumiyyətlə, ümummilli liderimiz Heydər Əliyevin xalqın təkidi ilə yenidən ölkə rəhbəliyinə gəlməsi ilə mühüm önəm verilən bu xətt möhtərəm dövlət başçımızın prezidentlik fəaliyyətinin ötən dövründə daim diqqət mərkəzində saxlanılıb. Belə ki, son 18 il ərzində 9200-ə yaxın şəhid ailəsi, müharibə əlili dövlət tərəfindən mənzillərlə təmin edilib. Təkcə keçən il bu məqsədlə 1572 mənzil ayrılıb. Bu il isə 3 minə yaxın mənzil veriləcəyi nəzərdə tutulub.

Yeri gəlmişkən, Prezident İlham Əliyevin bu il yanvarın 25-də imzaladığı "Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı bir sıra tədbirlər haqqında" Sərəncamı da həmin kateqoriyadan olan əhali qruplarına dövlət başçısının xüsusi qayğısının növbəti təzahürüdür. Xatırladaq ki, adı çəkilən sənəd Vətən müharibəsində şəhidlik zirvəsinə yüksələn qəhrəmanlarımızın ailələrinin və bu müharibə ilə əlaqədar əliliyi müəyyənləşdirilən şəxslərin də mənzil və ya fərdi evlə təminatını nəzərdə tutur.



Prezident İlham Əliyevin 8 dekabr 2020-ci il tarixli fərmanı ilə Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək məqsədilə "YAŞAT" Fondunun yaradılması, fond tərəfindən qısa müddətdə ciddi işlərin görülməsinə başlanılması nəticəsində davamlı olaraq müharibə əlilləri və şəhid ailələrinin, o cümlədən müharibə veteranlarının sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində həyata keçirilən intensiv tədbirlər artıq öz təsirli nəticələrini verməkdədir.

Ölkəmizdə şəhid ailələrinin və müharibə əlillərinin sosial müdafiəsi tədbirlərinə xüsusi önəm verilir, onlara yönələn sosial ödənişlərin artırılması diqqətdə saxlanılır. Eyni zamanda, şəhid ailələri və müharibə əlillərinin mənzil və fərdi evlə, müharibə əlillərinin avtomobillə təminatı tədbirləri yüksək səviyyədə davam etdirilir. Prezident İlham Əliyevin bu il iyunun 24-də imzaladığı sərəncamlarla Azərbaycan Respublikası ərazilərinin işğaldan azad olunması uğrunda aparılan hərbi əməliyyatlarda iştirak edərək igidlik və şücaət göstərən, vəzifə borcunu ləyaqətlə və vicdanla, döyüş tapşırıqlarını uğurla yerinə yetirən silahlı qüvvələrimizin 76 min 349 nəfər hərbi qulluqçusunun müxtəlif orden və medallarla təltif olunması da sözügedən istiqamətdə atılan mühüm addımlardan biridir.

Sonda onu da qeyd edək ki, bu sərəncamlar bir tərəfdən gələcəkdə hərbçi olmaq istəyən, bu peşəni həyatının mənası sayan gənclər üçün mühüm stimula çevrilməklə bərabər, həm də şüurlu fəaliyyətini ölkəmizin müdafiəsinə və müdafiə qabiliyyətinin yüksəldilməsinə həsr edən insanların əməyinin yüksək qiymətləndirilməsinin təzahürüdür. Orduya belə yüksək diqqət və qayğı, eyni zamanda, Azərbaycan dövlətinin gündən-günə artan iqtisadi gücündən və maliyyə imkanlarının getdikcə güclənməsindən xəbər verir.

*Vaqif BAYRAMOV,*
*"Xalq qəzeti"*